# Ştrixkodların verifikasiyası

Təcrübə göstərir ki, pərakəndə satış üçün istehsalçı tərəfindən göndərilən malların üzərində vurulan ştrixkodlar bəzən kassa terminallarında skanerlə oxuna bilmir. Etiketlərin üzərindəki ştrix - kodların çap keyfiyyətinin yoxlanmasına əhəmiyyət verilməməsi küllü miqdarda maliyyə itkisinə gətirə bilər. Bu məsələnin aktuallığı daha çox məhsulların ixracında özünü göstərir.

Belə halların qarşısının alınması üçün, mağazaya göndərilən malların ştrixkodlarının qabaqcadan yoxlanmasına ehtiyac var. İxrac mallarının etiketlərindəki ştrixkodların hündürlüyü, eni, kont - rastlığı qəbul olunmuş beynəlxalq standartlara uyğun olması xarici tərəfdaşlar tərəfindən irəli sürülən tələblərdən biridir. Xaricdə ştrixkodların yoxlanması, yəni verifikasiyası ticarət şəbəkəsi və mal göndərən arasında bağlanan standart müqaviləsinin şərtlərindən biridir. Bunun üçün ixrac olunan malların üzərindəki ştrixkodların keyfiyyətinin yoxlanması məqsədəuyğundur.

GS1 Azərbaycan Cəmiyyəti noyabrın 1-dən başlayaraq xüsusi avadanlıqla - Axicon 6515 mar - kalı verifikatorla ştrixkodların çap keyfiyyətinin yoxlanmasına başlayıb. Sınaq yoxlamanın nəti - cələri protokol şəklində təqdim olunur və müvafiq tövsiyələr verilir.

Bizim təşkilat dövrü olaraq standarta uyğun olmayan ştrixkodların aşkar edilməsi üçün reydlər keçirir. Misal üçün, «Pakan ltd» şirkətinin istehsal etdiyi «Emma» saç gelinə (300 qr, PET) məx - sus 4760012300234 ştrixkodu çap keyfiyyətinin aşağı olması, skanerlə oxunmaması göstərir. Demək, ştrixkod yoxlamadan keçməyib. Bu da ondan irəli gəlir ki, həmin ştrixkodun mətbəə tə - rəfindən çap standartları pozulub və buna görə də gelin üzərinəki ştrixkodu skaner oxuya bilmir.




F/Ş Salmanov Fazil Hüseyn oğlunun "Cippo" tumlarının etiketi

Azerbaijan

Ştrixkod simvolikasının
ISO/MЭK 15416-2000
beynəlxalq standartına uyğunluğu
verifikasiyasının
**PROTOKOLU**

Malın istehsalçısı: F/Ş SALMANOV FAZİL HÜSEYN OĞLU

Verifikasiya obyekti: **EAN-13 simvolikası**

Malın adı: **"Cippo" tumları**

Verifikasiyanın keçirilmə tarixi: 29 oktyabr 2008 il

| Nümunənin sayı | Verifikasiya üçün təqdim olan ştrixkodun rəqəmli əhəmiyyəti |
|---|---|
| 1 | 4760055200010 |

**Verifikasiyanın nəticələri:**

| Simvolun 10 dəfə skan olunmasının orta əhəmiyyəti | | | |
|---|---|---|---|
| Parametlər | Standart üzrə parametlərin normativ göstəriciləri | Faktiki əhəmiyyət | Standarta uyğunluğu |
| Dekodlaşdırma | | ver.keçmədi | yox |
| Dekodlaşma | > 0,62 (4 kl.), < 0,25 (0 kl.) | - 0,1 | yox |
| Modulyasiya | > 0,70 (4 kl.), < 0.40 (0 kl.) | 1,0 | keçib |
| Nöqsanlar | > 0,15 (4 kl.), > 0,30 (0 kl.) | 0,48 | yox |
| Simvolun kontrastlığı | > 70 (4 kl.), < 20 (0 kl.) | 23 | keçib |
| Kənarın kontrastlığı | > 15 % = keçib/səhv<br>< 15 % = keçib/səhv | 23 | keçib |
| Rmin/Rmax | Rmin = < 0,5 Rmax keçib<br>Rmin > 0,5 Rmax səhv | 0/0,24 | keçib |

**Verifikasiya nəticələri haqqında:**

Zolaqlarda açıq sahələr aşkarlanıb. Bu da skanerin süasının ştrixkodun zolaqlarının əks olunmasında maneçilik yaradır.

**Verifikasiya keçirib** S. Hacıyeva

"Cippo" tumlarının etiketindəki ştrixkodun verifikasiya protokolu

«Qazelli» MMC, «Bakı Şərab-2» ASC, «Lənkəran-Süd» ATSC, «Bakı Şampan Şərabları» SC, «ANTİM» LTD, «Göyçay -Süd» ATSC, «İlkin-A» MMC, «Vuqma Qida» MMC, «Aysu Qida Sənaye» MMC kimi şirkətlərin məhsullarındakı ştrixkodların çap keyfiyyətinin yoxlanması da mənfi nəticə göstərib.

















Belə halların qarşısını almaq üçün, mağazaya göndərilən malların ştrixkodları qabaqcadan yoxlanılmalıdır.

Bundan başqa, qeyd etmək istəyirik ki, əmtəənin etiketinə ştrixkodun maksimal dərəcədə dəqiq və düzgün vurulması üçün sifarişçinin mətbəəyə bu ştrixkodun film-masterini təqdim etməsi məqsədəuyğun olardı. Film-master yüksək keyfiyyətlə hazırlanan və xüsusi plyonkada yazılan ştrixkodun maketidir.

Film-master əmtəənin etiketində ştrixkodun yerləşdirilməsi və sonradan mətbəədə çap edilməsi üçün nəzərdə tutulub. Bununla, ştrixkodun yaradılmasına dair bütün qaydalara və standartlara maksimal dəqiqliklə riayət edilir. Bir film-masterdən istənilən sayda etiket çap etmək olar.

Bundan başqa, mətbəədə etiketlərin dizaynın hazırlanmasında film-masterdan əlavə master-fayl adlanan ştrixkodun kompüter təsvirini sifariş etmək olar.

Master-fayl – ştrixkodun elektron təsviridi.

Etiketlərin çap edilməsinə dair sifariş verərkən mətbəəyə film - masteri və ya master-faylı təqdim etməyiniz, Sizə sifarişçi tərə - findən gələcəkdə mümkün olan problemlərin qarşısını almağa imkan verəcək.

Tövsiyə kimi, film-master adlanan ştrixkod simvolunun make - tinin hazırlanmasını və Sizin etiketlərinizi çap edən mətbəəyə təqdim etməyinizi təklif edirik.

Bu cür film-masteri və master-faylı GS1 Azərbaycan Cəmiyyə - tində sifariş etmək olar.




Film-masterin nümunəsi